**UOT 336.714**

# MÜASİR ŞƏRAİTDƏ RESPUBLİKADA İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞMASINDA VERGİ TƏNZİMLƏNMƏSİNİN ROLU

**Kənan NOVRUZLU***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 aprel 2024; çapa qəbul edilmişdir: 23 may 2024; online-da çap edilmişdir: 25 iyun 2024.
Received: 19th of April, 2024; accepted: 23th of May, 2024; published online: 25th of June, 2024.

**Açar sözlər:** *investisiya mühiti, vergi, investisiya fəaliyyəti, vergi dərəcəsi, vergi tənzimlənməsi*

## Giriş

İnvestisiya sferası təsərrüfat mexanizminin təkmilləşdirilməsi prosesində mühüm rol oynadığından investisiya siyasətinin formalaşmasına daim diqqət artırılır. İnvestisiya qoyuluşları vasitəsilə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi üçün əhəmiyyətli keyfiyyət dəyişiklikləri həyata keçirilir, iqtisadiyyatın yüksək inkişafına nail olunur. Normal investisiya mühitinin yaradılması dövlətin iqtisadi, o cümlədən investisiya siyasətinin əsas vəzifələrindən biri kimi özünü göstərir. İnvestisiya vasitəsilə ictimai istehsalın planlı inkişafına nail olunur, iqtisadiyyatın səmərəliliyi və tarazlığı təmin edilir, çəkilən məsrəfin hər manatına görə daha çox məhsul və milli gəlir artımına şərait yaradılır. İnvestisiya əsas fondların yaradılmasına və təkrar istehsalına, maddi istehsalın digər formada inkişafına kapital qoyuluşları şəklində həyata keçirilir.

## 1. İnvestisiya mühitinin yaradılmasında və fəaliyyətinin davam etdirilməsində vergi tənzimləmələrinin rolu

Dövlət investisiya fəaliyyətinin tənzimlənməsində müxtəlif iqtisadi mexanizmlərdən istifadə edir. Tənzimləmədə, əsasən, vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi nəzərdə tutulur. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi sistemində vergilər mühüm rol oynayır. Bu baxımdan investisiya fəaliyyətinin stimullaşdırılmasının vergi mexanizminin xüsusiyyətlərinin öyrənilməsi və investisiya qoyuluşlarının prioritet istiqamətlərinin təhlili bu gün olduqca aktual bir məsələdir.

**Cədvəl 1.** *İqtisadiyyata yönəldilmiş investisiyalar, milyon manatla*

| İllər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Xarici investisiyalar** | 10998.9 | 16216.1 | 15697.3 | 14002.1 | 12119.5 | 10413.2 | 12751.9 | 14879.3 |
| **Daxili investisiyalar** | 9058.5 | 6490.3 | 8765.2 | 11874.9 | 12867.1 | 12070.8 | 12561.9 | 14255.8 |

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* novruzluknn@gmail.com

**Mənbə**: (Dövlət Statistika Komitəsi)

Yuxarıdakı qrafikdən xarici investisiyaların 2020-ci ili çıxmaq şərtilə son iki ildə davamlı artımını müşahidə etmək olar. Əslində eyni mənzərə daxili investisiyalar üçün də səciyyəvidir. Belə ki, 2020-ci ildə qlobal COVİD-19 pandemiyasının başlaması hər sahədə olduğu kimi iqtisadiyyata investisiyalar qoyuluşuna da mənfi təsirini göstərmişdir.

İnvestisiya mühitinin formalaşdırılması proseslərinin və mexanizmlərinin müasir aspektlərindən yanaşdıqda, bu proseslərə təsir edən çoxsaylı amilləri sistemli şəkildə araşdırmaq, onların təsir dairəsini müəyyənləşdirmək, ölkənin iqtisadi inkişaf prioritetləri kontekstində fokuslaşdırmaq, inkişaf səmtlərini proqnozlaşdırmaq və s. bu kimi tədbirlərə kompleks şəkildə yanaşmaq vacib şərtlərdəndir.

Qlobal iqtisadi çağırışlar şəraitində müasir dövrdə investisiya mühitinin formalaşdırılması proseslərinin səmərəliliyinin təmin olunması və bununla bağlı mövcud mexanizmlərin dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsi üçün bir qrup məsələlərə daha çox diqqətin yetirilməsini vacib hesab edirik:

- Qlobal iqtisadi və maliyyə təhdidləri şəraitində ölkəmiz özünün daha güclü fəaliyyət mexanizmlərindən ibarət investisiya siyasətini formalaşdırmalı və bununla bağlı strateji, konseptual yanaşmalar müəyyənləşdirilməlidir;
- Milli iqtisadiyyatın strateji inkişaf hədəfləri kontekstində dövlət investisiya siyasətinin gücləndirilməsi və daha işlək olan praktiki mexanizmlərin tətbiq olunması prosesləri sürətləndirilməlidir;
- İnvestisiya cəlbediciliyinin və investisiya mühitinin səmərəliliyinin artırılması üzrə beynəlxalq təcrübədə özünü doğrultmuş fəaliyyət modellərinin fundamental səviyyədə öyrənilməsi və ölkəmizin iqtisadi inkişaf modelinin strateji hədəfləri nəzərə alınmaqla, bu təcrübənin mütərəqqi nümunələrinin tətbiqi məsələlərinə baxılmalı və reallaşdırılmalıdır;
- Qeyri-neft sektoru sahələrinin əsas istiqamətləri üzrə iri investisiya-innovasiya layihələrinin hazırlanması və onların səmərəliliyinin təmin edilməsi tədbirləri həyata keçirilməlidir;
- Ölkədə investisiya mühitinin formalaşdırılması proseslərinin intensivləşdirilməsi və bununla bağlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi üçün investisiyaların cəlbi, hərəkəti, idarə olunması üzrə hüquqi-iqtisadi, institusional mexanizmlərin yenilənməsi, təkmilləşdirilməsi və s. təmin olunmalıdır.

İnvestisiya cəlbediciliyinin artırılmasının əsasını vergi siyasəti təşkil edir. Bu faktoru əhatəli şəkildə araşdırmaq üçün verginin investisiya cəlbediciliyinə təsirini ölçmək və bu prosesə təsir edə biləcək nüansları nəzərə almaq lazımdır. Məlumdur ki, vergi siyasəti ölkə iqtisadiyyatının ən gəlir gətirən sahəsidir. Vergi sistemindəki bu ardıcıllığı elə tənzimləmək lazımdır ki, nə iqtisadiyyatın gəlir mənbəyi olan vergilərin azalmasına gətirib çıxarmasın, nə də investisiya cəlbediciliyinə mənfi təsir göstərməsin. Bir mənfi cəhətin yaranması ilə həmin ölkəyə sərmayə yatıra biləcək xarici investorların fikirlərinin dəyişilməsinə səbəb ola bilər:

İlk olaraq dövlət elə bir vergi mexanizmi tətbiq etməlidir ki, vergi məbləği vergi qanunvericiliyinin tələblərinə uyğun olmaqla yanaşı, investisiya yatıracaq sərmayəçilərin maraqlarına kölgə salmasın. Vergi dərəcələrinin müəyyənləşdirilməsi təkcə dövlət xəzinəsini doldurmaqla investisiya cəlbedicilinə mənfi təsir etməməlidir, paralel olaraq həm investisiya axınını təmin etmək, eyni zamanda iqtisadiyyatın inkişafı istiqamətində inkişafedici xüsusiyyətini itirməməlidir.

İkinci əsas faktor odur ki, vergi siyasəti dəqiq və istiqamətli olmalıdır. İnvestisiya edən sahibkarlar vergi siyasətinin sonradan nə dərəcədə dəyişəcəyi ehtimalını nəzərə

alırlar. Bu baxımdan bir ölkənin vergi sistemində tez-tez dəyişikliklər olursa bu neqativ hal kimi qiymətləndirilir və investorların maraqlarına uyğun gəlmir.

Müəyyən bir investisiya layihəsinin həyata keçirilməsində maraqlı olan dövlət və ya region investorun davranışına vergi sistemi vasitəsilə aktiv təsir göstərə bilər, ona vergi güzəştləri verməklə onun gəlişini sürətləndirə bilər. Belə imtiyazlara adətən vergitutma bazasının azaldılması, vergi güzəştlərinin verilməsi, amortizasiya ayırmalarının artırılması və vergi tətillərinin verilməsi, yəni müəyyən müddət ərzində gəlir vergisinin bir hissəsinin ödənilməsindən azad edilməsi daxildir. Tamamilə mümkündür ki, əvvəlcə bir çox MDB ölkələrində ən populyar vergi güzəştlərindən biri olan vergi tətillərində xüsusi olaraq işləməyə diqqət yetirmək məqsədəuyğun olardı. Vergi tətilləri real investisiyaların əhəmiyyətli axınına səbəb ola bilər.

Layihənin parametrləri və xarici iqtisadi mühitin parametrləri üzrə müəyyən (və mütləq çox ciddi deyil) şərtlərdə vergi güzəştlərinin artırılması (müəyyən həddə qədər) investisiya prosesinin bütün iştirakçıları üçün faydalıdır, çünki bu, sonradan həm investor gəlirlərinin, həm də büdcəyə vergi daxilolmalarının artmasına səbəb olur. Hesablamaların göstərdiyi kimi, vergi tətillərinin nisbətən qısa müddətində belə artımı çox əhəmiyyətli ola bilər.

O da məlum olub ki, siyasi risk artdıqca vergi tətili mexanizmi daha effektiv olur. Bu o deməkdir ki, qeyri-sabit siyasi sistemlərdə vergi tətilləri aşağı səviyyəli sistemlərə nisbətən investorların gəlirlərində, eləcə də layihədən büdcəyə vergi daxilolmalarında daha böyük nisbi artım (faydaların olmadığı vəziyyətlə müqayisədə) gətirə bilər.

Eyni zamanda, unutmaq olmaz ki, siyasi riskin elə bir "kritik" səviyyəsi var ki, ondan yuxarı investisiya aktivliyinin azalması heç bir vergi tətili ilə kompensasiya edilə bilməz. Vergi tətillərinin "optimal" prinsipini tapmaq lazımdır ki, ona əsasən, müəyyən bir layihədən büdcəyə vergi daxilolmalarının azaldılmış məbləği (bütün vergi tətilləri üçün) maksimum olacaqdır. Model parametrlərinin geniş diapazonunda belə optimal vergi tətilləri bütün iştirakçılar üçün gəlirdə əhəmiyyətli artım təmin edə bilər. MDB-nin müxtəlif ölkələrində, məsələn, vergi tətillərindən istifadə olunur ki, bu zaman investor qoyulmuş vəsaitin tam ödənilməsinə qədər bir müddətə (adətən 3-5 il) vergidən azad edilir və ya daimi (müəyyən müddət ərzində yaradılan şirkətin parametrlərindən asılı olmayaraq) azad edilir.

İnvestisiya mühitində vergi tənzimləmələrinin sistemli şəkildə aparılmağını istəyiriksə bunu vergi növləri ilə etmək daha məqsədəuyğun olardı. Çünki respublikada son illərdə iqtisadiyyatda vergi islahatlarının aparılması daha çox vergi növləri üzərindən aparılır.

## 2. Vergi növləri ilə aparılan tənzimləmələr

Mənfəət vergisi ilə bağlı vergi sistemimizdə investisiyaların stimullaşdırılması məqsədilə önəmli güzəştlər öz əksini tapmışdır. Belə ki, ölkəmizdə investisiya təşviqi sənədini almış hüquqi şəxsin həmin sənədi aldığı gündən 7 il müddətinə əldə etdiyi mənfəətinin 50%-i vergidən azaddır.

Mənfəət vergisi müəssisələrin investisiya fəaliyyətinin stimullaşdırılması baxımından ən vacib vergi növü hesab olunur. Təcrübə göstərir ki, mənfəət vergisinin yüksək dərəcələrlə tutulması qiymətlərin artımına, əmək haqqı səviyyəsinin aşağı düşməsinə və real sektora yönəldilən investisiyaların azalmasına gətirib çıxarır. Mənfəət vergisi üzrə dərəcələrin aşağı salınması üzrə müzakirələr də məhz burdan qaynaqlanır.

Mənfəət vergisi üzrə həyata keçirilən islahatlar özünü kapitala yönəldilən investisiyalarda büruzə verir. Belə ki, 2021-ci ildə əsas kapitala yönəldilən investisiyaların məbləği əvvəlki illərə nisbətdə artaraq 15 957 028,2 min manat olmuşdur. Bu

investisiyaların əsas maliyyə mənbəyi isə müəssisə və təşkilatların öz vəsaitləri olmuşdur ki, bu rəqəm 10 180 684,1 min manat təşkil etmişdir. Buradan belə bir nəticəyə gəlirik ki, mənfəət vergisi sahəsində həyata keçirilən güzəştlər müəssisələrə imkan verir ki, investisiya məqsədilə ehtiyat yaratsınlar, yəni müəssislərin investisiya potensialı artsın.

Mənfəət vergisinin strukturu, vergi bazasının çəkilmiş xərclər qədər azaldılması və itkilərin gələcək dövrlərə keçirilməsinin nəzərdə tutulması investisiya risklərinin azaldılmasına kömək edə bilər. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən aktivlərin təqdim edilməsindən yaranan zərər aktivlərin təqdim edilməsindən daxilolmalarla həmin aktivlərin dəyəri arasındakı mənfi fərq kimi müəyyən edilir.

Aşağıdakı fəaliyyət növləri ilə məşğul olan müəssisələrin əlavə dəyər vergisindən azad olması həmin müəssisələrin fərdi inkişafına və həmçinin bu sahələrə investisiya qoymaqla ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir:

- Başqa müəssisələrə maliyyə xidmətinin göstərilməsi;
- Kütləvi informasiya vasitələri məhsullarının istehsalı ilə əlaqədar olan redaksiya xidmətləri;
- Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslərin bilavasitə özlərinin istehsal etdikləri məhsulların satışı;
- Texnoloji avadanlıqların idxalı. Qeyd edim ki, bu sahə yalnız o zaman vergidən azad olmuş hesab olunur ki, bu sahə ilə məşğul olan fərdi sahibkarlar investisiya təşviqi sənədini almış olsunlar. Həmçinin, bu azadolma investisiya təşviqi sənədinin alındığı tarixdən yeddi il müddətinə verilir.

Ölkə prezidentinin 4 avqust 2016 tarixli imzaladığı sərəncamda vergilərin ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli təsiri və özəlliklə də, əlavə dəyər vergisi ilə bağlı ciddi nüanslara toxunulmuşdur. Belə ki, məcəllədə ƏDV tutulmalı olan dövriyyənin başqa yol ilə dəyərinin müəyyən olunması nəzərdə tutulmamışdı və nəticədə sahibkarlar bu vergini ümumi dövriyyələrindən hesablamalı olurdular. Bu da məhsulun qiymətinə təsir göstərirdi və onu artırmış olurdu. İmzalanan sərəncam ilə bütün bu problemlər tənzimləndi. Nazirlik əlavə dəyər vergisinin son istehlakçı vergisi olduğunu və bu verginin ticarət əlavəsindən hesablanmalı olduğunu, bununla da qiymətlərin aşağı salınmalı olduğunu bildirdi. Əlavə dəyər vergisi ilə bağlı vacib ünsürlərdən biri odur ki, bəzi istehlak mallarının qiymətlərinin tənzimlənməsi üsulu kimi bu qiymətlərə tətbiq olunan ƏDV diferensiallaşdırılsın. İqtisadçıların fikrincə, əlavə dəyər vergisinin diferensiallaşdırılmasında məqsəd sahibkarlığın stimullaşdırılmasıdır. Bu zaman sahibkarlıq subyektlərinin sayı artır, bunun nəticəsində də ölkə iqtisadiyyatının həcmi böyüyür və vergi ödəyicilərinin sayı artır.

İnvestisiya prosesində resursların bölgüsünə dair qərarlar verildiyindən vergilər bu qərarlara təsir edən mühüm amildir. Vergilərin səviyyəsi həm kapitalın qiymətinə, həm investisiya xərclərinin həcminə, həm də investisiya qoyuluşu nəticəsində yaradılan obyektin fəaliyyəti ilə əlaqədar gəlir və xərclərin səviyyəsinə təsir göstərir. Buna görə də, ölkədə vergilərin səviyyəsini və strukturunu dəyişməklə investisiya fəallığına təsir etmək mümkündür. Ramsey qaydasına əsasən təkmil bazar şəraitində cəmiyyətin rifah itkilərini minimumlaşdırmaq üçün vergilər bütün əmtəələrin istehsal həcmini eyni nisbətdə azaldan səviyyədə müəyyən edilməlidir. Aydındır ki, tətbiq edilən vergilər qiyməti artırmaqla məhsula tələbi azaldır. Eyni vergi dərəcəsi tələbin qiymətə görə elastikliyi yüksək olan əmtəələrə tələbi daha çox, aşağı olan əmtəələrə tələbi isə daha az azaldır. Ramsey qaydası səmərəliliyə əsaslanır, lakin sosial ədalət prinsiplərinə uyğun deyildir. Belə ki, bu qayda tələbin qiymətə görə elastikliyi aşağı olan ilkin istehlak məhsullarına yüksək vergi təyin edilməsini tələb edir ki, bu da əsasən əhalinin nisbətən aşağı gəlirli təbəqəsi tərəfindən ödənilir.

P.Diamond və J.Mirlisə görə, "iqtisadiyyatda səmərəliliyə nail olmaq üçün aralıq məhsullara vergilər optimal vergi strukturuna daxil edilməməlidir (dövlətin firmalara satışları da vergiyə cəlb olunmamalı, istehlakçılara satışları isə vergiyə cəlb edilmə-lidir)". Belə ki, vergi gəlirləri istehsalın səmərəliliyini azaltmayan son istehlak məhsullarına vergi tətbiq etməklə toplana bilər. Bu yanaşma da, əsasən, Ramsey qaydasına uyğundur. Belə ki, investisiya məhsulları aralıq məhsullara aid olduğundan həmin məhsullara vergilərin azaldılması istehsalın səmərəliliyinin artırılması baxımından əhəmiyyətlidir. Həmçinin tələbin qiymətə görə elastikliyi son istehlak məhsullarına nisbətən investisiya əmtəələri üzrə yüksəkdir. Ramsey qaydasına əsasən əməyə tələbin əmək haqqına elastikliyi ilə kapitalın faiz dərəcəsinə görə elastikliyinin nisbətləri onlara tətbiq edilən verginin səviyyəsini müəyyən edir. Bütövlükdə, kiçik ölkələr xarici ticarətdən asılı olduğundan yerli firmaların rəqabət qabiliyyətinin yüksəldilməsinin mühüm istiqamətlərindən biri investisiya məhsullarına tətbiq edilən vergi və idxal rüsumlarının azaldılması ola bilər.

Qeyri-müəyyənlilik və risk investisiya qoyuluşlarının təxirə salınmasına və ya azaldılmasına səbəb olur. Belə ki, qanunlarda və hüquqi normalarda baş verən dəyişikliklər istehsal və təsərrüfat fəaliyyətində qeyri-müəyyənliyi artırır və bu da planlaşdırma işini çətinləşdirir. Bu baxımdan, ölkədə instusional dəyişikliklərin baş vermə tezliyinin artması, qanun və qaydalarda tez-tez dəyişikliklərin edilməsi investisiya riskləri yaradır. Xüsusilə, əmək, vergi, gömrük və s. qanunvericiliyində baş verən dəyişikliklər qoyulmuş investisyaların səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, təkcə Vergi Məcəlləsində 2020-2022-ci illər ərzində 27 dəfə dəyişiklik edilmişdir. Buna görə də, qanunvericilikdə baş verəcək dəyişikliklər haqqında biznes subyektlərinin bu dəyişikliklərə uyğunlaşırılması üçün kifayət edəcək vaxtdan əvvəl məlumatlandirilməsı üçün tədbirlərin görülməsi vacibdir.

## 3. İnvestisiya qoyuluşlarının gəlirliyinin artırılmasında vergi mexanizmlərinin rolu

İnvestisiya qoyuluşlarının gəlirliyinin artırılmasına vergi dərəcələri əhəmiyyətli dərəcədə təsir göstərir. Firmaların kapitalı ilə bağlı vergilərin azaldılması onların rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından əhəmiyyətlidir. Xüsusilə, kiçik ölkələrin firmaların xarici rəqabətin təsirinə daha çox məruz qaldıqlarından, belə ölkələrdə istehlaka vergilərin yüksək, istehsala isə aşağı müəyyən edilməsi yerli istehsal məhsul və xidmətlərinin qiymət baxımından rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olar. Belə ki, istehlaka tətbiq edilən vergilər hesabına istehsalla bağlı vergilərin azaldılması yerli məhsulların ucuzlaşmasına, daxili bazarda idxal məhsullarının qiymətinin yüksəlməsinə səbəb olur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının vergi daxilolmalarına dair statistik bazasına əsasən, 2020-ci ildə Çexiyada məhsul və xidmətlərə vergilərin məbləği şirkətlərin mənfəət vergisinin məbləğindən 3,3 dəfə, Danimarkada 5,0 dəfə, Estoniyada 36 dəfə, Avstriyada 5,3 dəfə, Almaniyada 6,0 dəfə çox olmuşdur. Azərbaycanda bu nisbət 2021-ci ildə 2,5 dəfə təşkil etmişdir. Araşdırmalar Azərbaycanda firmaların vergi yükünün mənfəət vergisinin və vergi amortizasiya normasının səviyyəsinə həssas olduğu, habelə inflyasiya səviyyəsi 0,292 faizdən kiçik olduqda, vergi amortizasiya norması sənayedə investisya qoyuluşları üçün əlavə stimullar yaratdığı müəyyən edilmişdir. Belə ki, amortizasiya ayırmaları əsas fondların tarixi dəyərindən hesablandığından, inflyasiya amortizasiya ayırmalarının real dəyərini azaldır. Vergi amortizasiya ayırmalarının diskonlaşdırılmış dəyəri ilə iqtisadi amortizasiya ayırmalarının diskontlaşdırılmış dəyəri arasındakı fərq aşağıdakı düsturla hesablanır:

$$PV(\delta_{tax} - \delta_e) = \frac{\delta_{tax}((1+\rho)^T - (1-\delta_{tax})^T)}{(\rho+\delta_{tax})(1+\rho)^T} - \frac{\delta_e(1+\pi)((1+\rho)^L - (1-\delta_e)^L(1+\pi)^L)}{(\rho+\delta_e+\delta_e\pi-\pi)(1+\rho)^L}$$
(1).

(1) düsturu əsasında aparılmış hesablamalar göstərir ki, inflyasiya səviyyəsi 0,32%-dən aşağı olduqda, emal sənayesində vergi amortizasiya ayırmalarının diskontlaşdırılmış məbləği iqtisadi amortizasiya ayırmalarının diskontlaşdırılmış məbləğini üstələyir. Bu baxımdan, 2023-2026-cı illərdə ölkədə inflyasiya səviyyəsinin 2-4 % arasında hədəfləndiyini nəzərə alaraq, mövcud vergi amortizasiya normalarının iqtisadi amortizasiya normalarına yaxınlaşdırılması üçün Vergi Məcəlləsində 114.3.2-ci maddəsində maşın və avadanlıqlara amortizasiya normasının 20 %-dən 25 %-ə qədər artırılması təklif edilir. Bu hal mənfəət vergisinə cəlb edilən vergi bazasının azalmasına səbəb olacaqdır. Belə ki, 2019-2021-ci illərdə ölkədə həyata keçirilmiş cəmi əsas fondların 16,1 %-i maşın, avadanlıq, alət və inventarların payına düşmüşdür ki, bunun da cəmi məbləği 8,5 mlrd. manata bərabərdir. Maşın və avadanlıqları üzrə amortizasiya normalarının 20 %-dən 25 %-ə artırılması, bu qrup əsas fondların amortizasiya müddətinin 15 ildən 12 ilə qədər azalmasına səbəb olacaqdır. Bununla yanaşı, 2007-2021-ci illərdə maşın və avadanlıqlara investisiya qoyuluşları əsasında aparılmış hesablamalar göstərir ki, bu qrup əsas fondlar üzrə amortizasiya normasının artırılması təqribən 120 mln. man. büdcə gəlirlərin azalmasına səbəb ola bilər. Bu da yerli firmaların investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün əlavə mənbəni formalaşdırar.

Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azaddırlar. Bununla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalı və onların emalı müəssisələrinin yaradılması halında müəssələr son məhsul satışından əldə edilən mənfəətə görə vergi verdiyindən bir müəssisə daxilində kənd təsərrüfatı istehsalının və kənd təsərrüfatı məhsullarının birləşdirilməsi ayrı-ayrı müəssisələrin yaradılmasına nisbətən səmərəsiz olur. Məsələn, südçülük ferması yaradılmasına qoyulan investisiya ilə süd emalı zavoduna qoyulan investisiyaya tələb edilən gəlirlilik fərqli olur. Birinci halda südçülük fermasına qoyulan investisiya hesabına əldə edilən mənfəət vergidən azad olunduğu halda, emal müəssisə bu vergiləri ödəməlidir. Bunlar bir müəssisədə birləşdikdə, Vergi Məcəlləsinə əsasən hər iki istiqamətdə qoyulmuş investisiya hesabına əldə edilən cəmi mənfəət vergiyə cəlb edilir. Bu baxımdan, transfer qiymətlər hesabına sui-istifadə hallarının qarşısının alınması (belə hal ayrı-ayrı müəssisələr olduqda da istifadə edilə bilər) mexanizminin tətbiqi ilə vergidən azad edilən istehsallar üzrə yaranan mənfəətin vergitutulan bazadan çıxılması mexanizminin yaradılması məqsədəuyğundur. Bir qrup daxilində transfer qiymətlərindən istifadəni məhdudlaşdırmaq üçün Vergi Məcəlləsinin 14-cü maddəsi ilə bazar qiymətlərinin tətbiqi nəzərdə tutulmuşdur.

## Nəticə

Digər ölkələrlə müqayisə aparan zaman belə qənaətə gəlmək olar ki, ölkəmizdə bir çox vergi növlərində faiz dərəcələri aşağı səviyyədədir. Xüsusən də investisiya qoyuluşuna yönəlik investorlara xüsusi vergi güzəştləri tətbiq olunur. Hər bir ölkə investisiya gəlirlilik həcminin artırılması üçün müəyyən təkliflər paketi hazırlayır, vergi güzəştləri tətbiq edirlər. Vergi siyasətini düzgün təyin etmək mühüm məsələlərdəndir. Vergi faizləri nə çox aşağı olmamalı, nə də investisiya qoyuluşuna maneə yaradacaq qədər çox olmamalıdır. Əgər vergi dərəcələri və faizləri çox olarsa investisiyanın inkişafına mənfi təsir göstərəcəkdir. Bu da investisiya qoyuluşu edən investorların maraqlarına uyğun gəlməyəcəkdir. İnvestisiya cəlbediciliyinin artırılmasında vergi siyasətinin böyük əhəmiyyəti vardır. Bir ölkəyə investisiya qoyuluşu etməzdən əvvəl ilk ola-

raq həmin ölkənin vergi sistemi təhlil olunur, mənfi və müsbət xüsusiyyətləri analiz edilərək təhlil edilir. Son illərdə vergi sisteminə edilən dəyişikliklər araşdırılır. Əsaslandırılmış şəkildə tətbiq olunan vergi güzəştləri investisiya fəaliyyətinin inkişafına və formalaşmasına əsaslı təkan verir. Əksər Avropa ölkələrinə nəzər salsaq görərik ki, həmin ölkələrdə tətbiq edilən vergi güzəştləri birbaşa investisiya mühitinə yönəlikdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (www.economy.gov.az/az).
2. Azərbaycan Respublikası Statistika Komitəsi. (www.stat.gov.az).
3. Azərbaycanda vergilər və vergitutma. Universitetlər üçün dərslik. Bakı: MM-S nəşriyyatı, 2020, 460 s.
4. İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 20 aprel 2016-cı il, №878.
5. İsgəndərov Q.F. İnvestisiya cəlbediciliyinin artırılmasında vergi siyasətinin rolu. Azərbaycan nümunəsində. Magistr dissertasiyası. Bakı: ADİU nəşriyyatı, 2023.
6. Məmmədov Ə., Seyfullayev İ. Vergi və investisiya. Bakı: Bestrack nəşriyyatı, 2013, 376 s.
7. Rzayev P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Monoqrafiya. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2013, 392 s.
8. Atkinson A.B., Stiglitz J.E., The design of tax structure: Direct versus indirect taxation. Journal of Public Economics, 1976, 6(1-2), pp. 55-75.
9. Ahmadov B., Comparative assessment of capital income taxationin Azerbaijan, Kazakhstan, Georgia, and Belarus, Journal of EasternEuropean and Central Asian Research, 2022, 9(2), pp. 217-228.
10. Kate F.T., Milionis P., Is capital taxation always harmful for economic growth? International Tax and Public Finance, 2019, Vol.26, pp. 758-805.
11. Kenneth J.L., Redistributive Taxation in a Simple Perfect Foresight Model, Journal of Public Economics, 1985, 28(1), pp. 59-83.
12. Ramsey F.P., A Contribution to the Theory of Taxation. The Economic Journal, 1927, Volume 37, Issue 145, pp. 47-61.
13. Хиллман А., Государство и экономическая политика возможности и ограничения управления, Москва: ГУ-ВШЭ, 2016, 878 с.


***Резюме***

***Канан Наврузлу***


***Роль налогового регулирования в формировании инвестиционной среды в республике в современных условиях***

Глобальные экономические вызовы и происходящие преобразования требуют принятия комплексных и системных мер, а также выдвижения новых требований к различным видам деятельности экономики страны. В этом случае возникают проблемы модернизации различных отраслей экономики, их редевелопмента на основе современных технологий, эффективного использования потенциала отраслей экономики, способных создавать большую добавленную стоимость. Несомненно, для решения всех этих проблем требуется ускорение институциональных и экономических реформ и в связи с ними большие объемы существенных капитальных вложений, как мы говорили в начале, инвестиций и особенно более интенсивного привлечения иностранных инвестиций.

Поскольку инвестиционная сфера играет важную роль в процессе совершенствования экономического механизма, формированию инвестиционной политики постоянно уделяется внимание. За счет инвестиций осуществляются существенные качественные изменения для улучшения структуры экономики, достигается высокое развитие экономики.

Создание нормальной инвестиционной среды является одной из главных задач экономической и инвестиционной политики государства. Процессы формирования инвестиционной среды привлекают внимание как одно из стратегических направлений экономической политики каждой страны. Основной причиной этого является необходимость постоянных инвестиционных ресурсов и финансовой поддержки процессов экономического развития. Для оптимального формирования инвестиционной политики государства все вопросы должны быть всесторонне проанализированы, а механизмы, рассматриваемые в качестве основного направления инвестиционной политики, должны быть обоснованы, охватывая долгосрочную перспективу.

В статье кратко упоминается создание инвестиционной среды и все связанные с ней процессы, а затем вводится налоговое регулирование, которое мы в основном и рассмотрим. В статье изучено взаимодействие налога и инвестиций, избегая распространения основной проблемы работы, такой как проявления, формы инвестирования или совершенствования налоговой системы, которые были обнаружены в предыдущих исследованиях и исследованиях. Основная цель статьи - изучить оптимальное налоговое регулирование в направлении улучшения инвестиционного климата и стимулирования инвестиций и выдвинуть соответствующие предложения.

**Ключевые слова:** *инвестиционная среда, налог, инвестиционная деятельность, налоговая ставка, налоговое регулирование*

***Summary***

***Kanan Nowruzlu***

***The Role of Tax Regulation in forming the investment environment in the republic in modern conditions***

Global economic challenges and ongoing transformations require the taking of complex and systematic measures as well as bringing out new requirements for various activities of the country's economy. In this case, the problems of modernization of various economic sectors, redevelopment based on modern technologies, efficient use of the potential of economic sectors capable of creating more added value appear. Undoubtedly, in order to solve all these problems, acceleration of institutional and economic reforms and in connection with them a large amount of substantial capital investments, as we mentioned at the beginning, investments and especially more intensive attraction of foreign investments are required.

Since the investment sphere plays an important role in the process of improving the economic mechanism, attention is constantly being paid to the formation of the investment policy. Through investments, significant quality changes are made to improve the structure of the economy, high development of the economy is achieved

Creating a normal investment environment is one of the main tasks of the state's economic and investment policy. The process of formation of the investment environment attracts attention as one of the strategic directions of the economic policy of each country. The main reason for this is the need for continuous investment resources and financial support in economic development processes. For the optimal formation of the state's investment policy, all issues should be comprehensively analyzed and the mechanisms considered as the main line of the investment policy should be justified by covering the long term.

In the article, the creation of the investment environment and all the processes related to it are briefly mentioned, and then the tax regulations that we will mainly examine are introduced. In the article, the interaction between tax and investment was studied, avoiding the spread of the main problem of the work, such as the manifestations, forms of investment or the refinement of the tax system, which were found in previous researches and studies. The main goal of the article is to study the optimal tax regulations in the direction of improving the investment environment and stimulating investments and put forward relevant proposals.

**Keywords:** *Investment environment, tax, investment activity, tax rate, tax regulations*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.